# Ağır atletika üzrə Avropa çempionu Cansu Bektaşa və Ağır Atletika üzrə Avropa Çempionatının gümüş medal sahibi Qamze Altuna

Əziz Cansu və Qamze!

İrəvanda keçirilən Ağır Atletika üzrə Avropa Çempionatında qızıl və gümüş medallar qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Sizin yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək dünya miqyasında Türkiyə bayrağını dalğalandırmağınız, İstiqlal marşını səsləndirməyiniz bütün Azərbaycan xalqını sevindirdi.

Qələbələrinizi Azərbaycana həsr etdiyinizə görə Sizə xüsusi təşəkkür edirik. Bu bir daha onu sübut etdi ki, Azərbaycan olmayan yerdə Türkiyə daim bizi təmsil edir və haqq işimizi dəstəkləyir. Bu, sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürüdür.

Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik.

*Hörmətlə,*

***İlham ƏLİYEV və Mehriban ƏLİYEVA,***

*Bakı şəhəri, 16 aprel 2023-cü il*

Azərbaycan.- 2023. -18 aprel.- S.1.